Bülleten No: 21 / sentyabr 2014

Elektron Hökumət Portalı
your gateway to all public services

AZƏRBAYCAN RESPUBLİKASI
RABİTƏ VƏ YÜKSƏK
TEXNOLOGİYALAR NAZİRLİYİ

www.e-gov.az

SENTYABR 2014

# Elektron Hökumət Bülleteni



## Vətəndaş və dövlət qurumları münasibətlərində yeni səhifə



VAXTA QƏNAƏT



ŞƏFFAF



ƏLVERİŞLİ



RAHAT



SYSTEM CERTIFICATION ISO 9001 SGS
UKAS ENVIRONMENTAL MANAGEMENT 005

# "Dövlət informasiya sistemləri və informasiya ehtiyatları haqqında" qanun layihəsi hökümətə təqdim olundu

**Rabitə və Yüksək Texnologiyalar Nazirliyi (RYTN) Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi (VXSİDA) ilə birlikdə "Dövlət informasiya sistemləri və informasiya ehtiyatları haqqında" qanun layihəsi hazırlayıb.**

"Elektron hökumət" portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi və elektron xidmətlərin genişləndirilməsi ilə bağlı tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 5 fevral tarixli 813 nömrəli Fərmanının 2.2-ci bəndindən irəli gələn məsələlərin həlli ilə bağlı hazırlanan qanun layihəsi aidiyyəti dövlət orqanları ilə razılaşdırılaraq baxılması üçün hökumətə təqdim olunub.

"Dövlət informasiya sistemləri və informasiya ehtiyatları haqqında" qanun layihəsində dövlət informasiya sistemlərinin və ehtiyatlarının formalaşdırılması, idarə edilməsi, təhlükəsizliyinin təmin olunmasının əsas meyarları, inteqrasiyası və ləğvi, həmçinin dövlət informasiya sistemlərinin və ehtiyatlarının subyektlərinin hüquq və vəzifələrinin əsasları müəyyən edilib, onlar arasında qarşılıqlı əlaqə zamanı yaranan münasibətlərin tənzimlənməsi ilə bağlı məsələlər nəzərə alınıb.



# Elektron xidmətlərin genişləndirilməsi və "elektron hökumət"in inkişafına dair Dövlət Proqramı razılaşdırılma mərhələsindədir

**Azərbaycanın növbəti illər üçün elektron xidmətlərin genişləndirilməsi sahəsində əsas hədəflərini əks etdirən "2014-2016-cı illərdə dövlət orqanlarında elektron xidmətlərin genişləndirilməsi və "elektron hökumət"in inkişafına dair Dövlət Proqramı" hazırda aidiyyəti qurumlarla razılaşdırılma mərhələsindədir.**

Dövlət Proqramının məqsədi "elektron hökumət"in formalaşdırılması və elektron xidmətlərin təkmilləşdirilməsi istiqamətində ölkədə indiyədək aparılmış işlərin davam etdirilməsi, bu sahədə ardıcıl və məqsədyönlü addımların atılması ilə müasir informasiya cəmiyyətinin tələblərinin təmin edilməsidir. Dövlət Proqramında qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün bir sıra məsələlərin həlli nəzərdə tutulur.

Burada sahə üzrə normativ hüquqi bazanın təkmilləşdirilməsi; dövlət orqanlarının zəruri informasiya sistemləri və ehtiyatlarının müəyyənləşdirilmiş tələb və standartlara uyğun qaydada yaradılması, inteqrasiyası, təhlükəsizliyinin təmin edilməsi və mövcud informasiya sistemləri və ehtiyatlarının təkmilləşdirilməsi; dövlət orqanlarının informasiya sistemləri və ehtiyatları arasında məlumat mübadiləsi prosesinin təkmilləşdirilməsi (vahid informasiya fəzasının yaradılması); modern və çevik idarəetmənin təmin edilməsi, dövlət orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılması, şəffaflığının təmin edilməsi və bürokratiyanın aradan qaldırılması ilə "hökumət-vətəndaş" münasibətlərində yeni müstəviyə keçidin təmin edilməsi, vətəndaş məmnunluğunun artırılması; əhaliyə elektron xidmətlərin göstərilməsinin keyfiyyətinin və əlçatan olmasının artırılması, əhatə dairəsinin genişləndirilməsi yer alıb.



*Dövlət Proqramı üzrə "Elektron hökumət"in inkişafı istiqamətində "elektron hökumət" infrastrukturunun inkişaf etdirilməsi;*

*dövlət orqanlarının informasiya sistemləri və ehtiyatları arasında məlumat mübadiləsinin təkmilləşdirilməsi;*

*"elektron hökumət" portalının təkmilləşdirilməsi və ondan səmərəli istifadənin təmin edilməsi;*

*İKT sahəsində kadr potensialının gücləndirilməsi;*

*vətəndaşların "elektron hökumət" üzrə məlumatlılıq səviyyəsinin yüksəldilməsi;*

*dövlət qulluqçularının İKT biliklərinin artırılması üzrə təlimlərin keçirilməsi;*

*müvafiq sahə üzrə qanunvericiliyin təkmilləşdirilməsi daxildir. İnformasiya sistemlərinin və ehtiyatlarının yaradılması və təkmilləşdirilməsi istiqamətinə isə informasiya sistemlərinin monitorinqinin həyata keçirilməsi;*

*sahələr üzrə dövlət orqanlarının zəruri informasiya sistemlərinin və ehtiyatlarının yaradılması və mövcud informasiya ehtiyatlarının təkmilləşdirilməsi;*

*fərd haqqında olan məlumatların Fərdi İdentifikasiya Nömrəsi (FİN) ilə əlaqələndirilməsi aiddir.*

www.e-gov.az

*Elektron xidmətlərin təkmilləşdirilməsi istiqamətinə gəldikdə, burada dövlət orqanlarında elektron xidmətlərin təşkili və göstərilməsi üzrə qiymətləndirmələrin davam etdirilməsi və elektron xidmətlərin təşkili və göstərilməsinin təkmilləşdirilməsi;*

*elektron xidmətlərin portativ (mobil) qurğular üzərindən həyata keçirilməsi (mobil xidmətlər), elektron ödənişin genişləndirilməsi;*

*elektron imzadan istifadənin genişləndirilməsi və mobil imzanın tətbiqi yer alıb.*

Dövlət Proqramının həyata keçirilməsindən gözlənilən nəticələrə gəlincə, "elektron hökumət"in inkişafına və dövlət orqanlarının əhaliyə beynəlxalq standartlara uyğun elektron xidmətlər göstərməsinə şərait yaradan normativ hüquqi baza formalaşdırılacaq; elektron xidmətlərin göstərilməsi zamanı istifadə olunan informasiya ehtiyatlarının və onlardan əldə edilməsi zəruri olan məlumatların tərkibinin müəyyən olunması və bu məlumatların "Elektron hökumət" portalı vasitəsilə istifadəsi təmin ediləcək.

Həmçinin dövlət orqanlarının informasiya ehtiyatlarının elektron formaya keçirilməsinin sürətləndirilməsi təmin ediləcək. Dövlət informasiya ehtiyatlarının və sistemlərinin vahid tələblər əsasında yaradılması, inteqrasiyası və təhlükəsizliyi təmin ediləcək; vahid informasiya fəzası formalaşdırılacaq.

"Elektron hökumət" portalının işi təkmilləşdiriləcək, elektron xidmətlərdən istifadə sadələşdiriləcək və dövlət idarəçiliyində müasir texnologiyaların tətbiqi genişləndiriləcək.

Dövlət orqanları arasında elektron xidmətlərin inkişaf etdirilməsi, vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin və əlçatan olmasının artırılması, əhatə dairəsinin genişləndirilməsi təmin ediləcək; inzibati proseslərin təkmilləşdirilməsi və hesabatlılığın gücləndirilməsi yolu ilə vətəndaş məmnunluğu artırılacaq və "hökumət-vətəndaş" münasibətlərində yeni müstəviyə keçid təmin ediləcək. Dövlət orqanları tərəfindən xidmətlərin İKT-nin nailiyyətlərindən istifadə edilməklə, həyata keçirilməsi nəticəsində izafi xərclər ixtisar ediləcək.

## "BakuTel" sərgisi bu il 20 illik yubileyini qeyd edəcək




**Ölkənin aparıcı ixtisaslaşdırılmış sərgilərindən biri, eyni zamanda Xəzər və Qafqaz regionlarının telekommunikasiya və informasiya texnologiyaları sahəsində ən böyük sərgisi - "BakuTel" Azərbaycan beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgi və konfransı bu il öz yubileyini qeyd edəcək.**

Artıq 20 ildir ki, "BakuTel" sərgisi hər il telekommunikasiya bazarının aparıcı subyektlərini öz meydançasında bir araya toplayaraq, İT məhsul və xidmətlərinin nümayiş etdirilməsi üçün əsas arena funksiyasını yerinə yetirir və burada möhkəm əlaqələr qurulur, yeni müəssisələr yaradılır. Azərbaycan Rabitə və Yüksək Texnologiyalar Nazirliyi (RYTN) "BakuTel"in həm inkişafında, həm də təşəkkül tapmasında, eləcə də ona yeni təkan verilməsində sərgiyə yaxından dəstək göstərir.

Təşkilatçıları "Iteca Caspian" və onun tərəfdaşı "ITE Group Plc" şirkətləri olan sərgidə bu günə qədər 100-dən çox şirkətin iştirakı təsdiqlənib. İştirakçılar arasında aparıcı İKT şirkətləri, Azərbaycanın mobil rabitə operatorları, internet provayderləri, sistem inteqratorları və məşhur markaların distribüterləri var. Sərgidə bir sıra ölkələrin milli stendlərinin maraqlı iştirakı gözlənilir. Sözügedən milli stendlərin iştirakı Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin fəal dəstəyi çərçivəsində təşkil olunacaq.

Ənənəyə sadiq qalaraq, sərgi gənc mütəxəssislərin regionun İKT sektorunun bu ən böyük tədbiri çərçivəsində öz ixtira, proqram və xidmətləri haqqında danışması üçün imkan yaradır. Bununla əlaqədar olaraq, sərgidə "startap"lara (yeni fəaliyyətə başlayan şirkətlərə) böyük diqqət ayrılıb və bu il də onların sərgidə iştirakı üçün xüsusi stendlər təşkil olunacaq. Ənənəvi olaraq, "Bakutel 2014" sərgisi konfrans, seminarlar, dəyirmi masalar, biznes və internet forumları və bir çox digər tədbirləri ehtiva edən maraqlı işgüzar proqramı ilə fərqlənəcək.

Sərginin ərazisində həm də ən son oyun texnologiyalarından istifadə olunan oyun zonası yerləşəcək. Həmçinin, sərginin 20 illik yubileyi ilə əlaqədar əlavə tədbirlər proqramı planlaşdırılaraq həyata keçiriləcək və bu proqram özünün koloriti və rəngarəngliyi ilə həm iştirakçıları, həm də ziyarətçiləri sevindirməklə yanaşı, sərgidə xüsusi təntənə və bayram əhval-ruhiyyəsi yaradacaq.

Qeyd edək ki, sərgi 2-5 dekabr tarixlərində təşkil olunacaq.

# Səlim Müslümov: "Artıq 300 minə yaxın əmək müqaviləsi bildirişi yeni sistemdə qeydiyyatdan keçib"

"Ötən ilin dekabrı da daxil olmaqla son 9 aya yaxın dövrdə respublika prezidenti tərəfindən ölkə əhalisinin sosial təminatının gücləndirilməsinə xidmət edən 12 fərman və sərəncam imzalanıb. Həmin sənədlər sosial cəhətdən həssas əhali qruplarına dövlət qayğısının əhəmiyyətli şəkildə artmasına səbəb olub. Bununla yanaşı, bizim üçün prioritet məsələlərdən biri dövlət qayğısının aztəminatlı əhali təbəqələrinə çatdırılması sistemini şəffaflıq prinsipi və müasir texnologiyalar əsasında davamlı olaraq təkmilləşdirməkdir".

Bu fikri nazir Səlim Müslümov Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində (ƏƏSMN) keçirilən "Məlumat mübadiləsi saatı"nın növbəti iclasında bildirib. Nazir qeyd edib ki, bu istiqamətdə ən mühüm addımlardan biri ünvanlı dövlət sosial yardımının təyinatı prosesinin avtomatlaşdırılmasıdır:

"Bu məqsədlə xüsusi işçi qrup tərəfindən yeni layihə hazırlanıb. Qeyd olunan layihənin pilot ərazilərdə tətbiqinin nəticələri əsasında ünvanlı sosial yardım haqqında qanunvericiliyə dəyişikliklər edilməsi nəzərdə tutulur". Nazir sosial cəhətdən həssas əhali qruplarına göstərilən diqqət və qayğıdan söz açaraq, ölkənin sosial təminat və sosial xidmətlər sisteminin təkmilləşdirilməsi istiqamətində mütərəqqi dünya təcrübəsi əsasında mühüm işlərin aparıldığını vurğulayıb, həmçinin cari ilin 1 iyulundan işə salınan əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sisteminə toxunub: "Artıq 300 minə yaxın əmək müqaviləsi bildirişi yeni sistemdə qeydiyyatdan keçib və işəgötürənlər arasında aparılan çoxşaxəli məlumatlandırma işlərinin müsbət nəticəsi olaraq, hər gün qeydiyyatdan keçən bildirişlərin sayı əvvəlki günə nisbətən xeyli çox olur".




Nazirliyin İctimaiyyətlə əlaqələr sektorundan verilən məlumata görə, S.Müslümov qeyd olunan sahələrdə aparılan işlər, yeni bilik və təcrübələrlə bağlı bu iclasda məlumat mübadiləsinin "beyinlərin hücumu" metodu ilə mövcud problemlərin həllinin ən optimal variantını tapmaqda, ümumi məlumatlılıq səviyyəsinin yüksəlməsində, görülən işlərdə vahid və əlaqəli yanaşma prinsipinin güclənməsində mühüm önəm kəsb etdiyini vurğulayıb.

# "Elektron Hökumət" portalına əmlak məsələləri üzrə daha altı yeni elektron xidmət inteqrasiya edilib

Əmlak Məsələləri Dövlət Komitəsinin daha altı yeni elektron xidməti "Elektron Hökumət" portalına inteqrasiya edilib. Bu xidmətlərə "Servitutun dövlət qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu", "Servitutun dövlət qeydiyyatının ləğvi üçün müraciətin və sənədlərin qəbulu", "Məhv olmuş daşınmaz əmlakın və onun üzərindəki hüquqların dövlət qeydiyyatının ləğvi", "Daşınmaz əmlaka dair texniki sənədlərin (pasport və plan ölçü) tərtib edilməsi üçün müraciətin və sənədlərin qəbulu", "Daşınmaz əmlakla bağlı uzufruktun dövlət qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu" və "Daşınmaz əmlakla bağlı uzufruktun dövlət qeydiyyatının ləğvi üçün müraciətin və sənədlərin qəbulu" daxildir.

Qeyd olunan e-xidmətdən yararlanmaq üçün müvafiq autentifikasiya vasitələrindən istifadə edərək portala giriş tələb olunur. Aidiyyəti məsələlər üzrə müraciət edən ərizəçinin şəxsiyyəti sistem vasitəsilə avtomatik müəyyən edilir. Bu xidmətlərdən etibarnamə vasitəsi ilə səlahiyyətli seçilən şəxslərin istifadəsinə də şərait yaradılıb.

Xidmət istifadəçilərinin işini səmərəliləşdirmək məqsədilə müraciət ərizələrinə əlavə olunmalı sənədlər üçün ayrıca sənəd yükləmə düymələri yerləşdirilib. Eyni zamanda istifadəçilər dövlət rüsumunu online rejimdə internet vasitəsilə ödəyə bilirlər.



Həmçinin, komitə tezliklə istənilən daşınmaz əmlak barədə məlumatın daşınmaz əmlakın dövlət reyestrindən elektron şəkildə əldə olunmasının mümkün edilməsi üzərində işləyir.

Qeyd edək ki, "Elektron Hökumət" portalı üzərindən Əmlak Məsələləri Dövlət Komitəsinin təqdim etdiyi e-xidmətlərin sayı artıq 28-ə çatdırılıb.

www.e-gov.az

# Dövlət əmlakının qorunması və istifadə vəziyyəti ilə əlaqədar hesabatların qəbulu prosedurları tamamilə elektronlaşdırılıb

**Əmlak Məsələləri Dövlət Komitəsi son illər dövlət əmlakı idarəçiliyinin təkmilləşdirilməsi, müasir əsaslarla inkişafı, optimal idarəetmə metodlarının tətbiqi, dövlət əmlakının özəlləşdirilməsinin sürətləndirilməsi istiqamətində bir sıra nəticələr əldə edib.**

Azərbaycan Respublikası Prezidentinin dövlət əmlakının qorunub saxlanması, idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı müvafiq fərmanının icrası ilə bağlı müntəzəm tədbirlər görülür.

Dövlət əmlakının qorunması və istifadə vəziyyəti ilə əlaqədar hesabatların qəbulu prosedurları sadələşib və tamamilə elektronlaşdırılıb. Belə ki, komitənin elektron xidmətlər portalında dövlət əmlakının qorunub saxlanılması və ondan istifadə edilməsi vəziyyəti haqqında xüsusi hesabat formasının elektron qəbulu ilə bağlı e-xidmət fəaliyyət göstərir. Bu xidmət dövlət müəssisə və qurumlarına xüsusi hesabat formalarını artıq elektron şəkildə təqdim etmək imkanı yaradıb.

Bununla da, əvvəllər bu prosesə sərf olunan vaxta böyük qənaət olunub, belə hesabatları vermək üçün komitənin ərazi şöbələrinə gediş-gəlişlərə ehtiyac qalmayıb. Komitədən qeyd edilib ki, 2014-cü ilin ilk 6 ayında 2080-ə yaxın dövlət müəssisə və təşkilatı tərəfindən illik xüsusi hesabat forması elektron xidmət vasitəsilə təqdim edilib.

Dövlət əmlakı idarəçiliyi sahəsində elektron xidmətlər ilə bərabər, müasir yanaşma və üsulların, optimal və şəffaf idarəetmə metodlarının tətbiqi ilə bağlı tədbirlər də həyata keçirilir.

Müasir idarəçilik prinsipləri və mexanizmləri əsasında dövlət əmlakının idarə edilməsinin təkmilləşdirilməsi, bu istiqamətdə şəffaflıq və effektivliyin artırılması, bu sahədə müvafiq dövlət qurumları arasında səmərəli koordinasiya sisteminin qurulması təmin edilir. Bu proseslər həyata keçirilərkən bu sahədə inkişaf etmiş ölkələrin təcrübəsi öyrənilir, proseslərə beynəlxalq məsləhətçilər cəlb edilir.

Dünya Bankının dəstəyi ilə icra olunan “Daşınmaz Əmlakın Qeydiyyatı Layihəsi” çərçivəsində tədbirlər görülür. Beynəlxalq ekspertlər tərəfindən dövlət əmlakının idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı qiymətləndirmələr aparılır, hesabatlar və fəaliyyət planları tərtib edilir, tövsiyələr və təkliflər hazırlanır. Dövlət müəssisə və təşkilatlarında dövlət əmlakından səmərəli istifadə olunması və qorunub saxlanılması ilə əlaqədar müasir üsullarla monitorinqlər keçirilir.

Müəssisə və təşkilatların özəlləşdirmə vəziyyəti və perspektivləri, özəlləşmədən sonrakı fəaliyyəti, müəssisələrin maliyyə-təsərrüfat fəaliyyəti və cari ilin proqnozları ilə bağlı məlumatlar təhlil edilir. Belə məlumatlar ümumiləşdirilir, onların əsasında statistik və qrafik məlumatlar hazırlanır. Dövlət əmlakının qorunub saxlanılması, səmərəli istifadəsi, yerləşdikləri torpaq sahələrindən hüquqi əsas olmadan istifadə hallarının qarşısının alınması istiqamətində məsələlər daim nəzarətdə saxlanılır. Bu məqsədlə, komitə tərəfindən müasir tələblərə cavab nəzarət mexanizmləri tətbiq edilir. Müəssisələrin registr məlumatları, xüsusi hesabat formaları, illik balans hesabatları və digər məlumatlar əldə edilərək zəruri təsərrüfat-maliyyə göstəriciləri müəyyənləşdirilir. Onların müqayisəli təhlili aparılır və vahid məlumat bazasının formalaşdırılması istiqamətində işlər həyata keçirilir.

Cari ilin ilk 6 ayı ərzində dövlət əmlakının mövcudluğu, qorunub saxlanılması və ondan səmərəli istifadə olunması, dövlət büdcəsinə çatacaq dividendlərin hesablanması və ödənilməsi vəziyyətinə dair 200-ə yaxın monitorinq keçirilib. 256 dövlətə məxsus səhmləri olan səhmdar cəmiyyətlərindən 180-ə yaxını illik balans hesabatlarını təqdim ediblər. 243 dövlətə məxsus səhmləri olan səhmdar cəmiyyətindən əmlakın inventarizasiya aktları qəbul olunub.

# Türkiyənin dövlət qulluqçularına Azərbaycanda “Elektron hökumət” portalı üzərindən əmək müqavilələrinin qeydiyyatı izah olunub

**Türkiyə və Azərbaycanın dövlət orqanları arasında təcrübə mübadiləsinin aparılması məqsədilə ölkəmizdə səfərdə olan Türkiyənin dövlət qulluqçularından ibarət nümayəndə heyəti Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində (ƏƏSMN) olublar.**

Nazirlikdən bildirilib ki, Türkiyə Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyinin əməkdaşları təqdimatlarla çıxış edərək çalışdıqları nazirliyin strukturu və əsas fəaliyyət istiqamətləri, sosial cəhətdən həssas əhali təbəqələri ilə bağlı həyata keçirdiyi proqram və layihələr, aktiv məşğulluq tədbirləri və s. barədə ətraflı məlumatlar veriblər.

Eyni zamanda ƏƏSMN-in struktur bölmələrində olan qonaqlara Azərbaycan təcrübəsi, həmçinin nazirlik tərəfindən icra olunan yeni sosial layihələr, həyata keçirilən islahat tədbirləri, o cümlədən əmək müqaviləsi bildirişi üzrə elek-



tron informasiya sisteminin formalaşdırılması haqda ətraflı məlumat verilib, Əmək müqaviləsi bildirişlərinin “Elektron hökumət” portalı üzərindən qeydiyyata alınmasının mahiyyəti izah edilib.

# Hərraclarda elektron xidmətlərin tətbiqi genişləndirilir

*Əmlak Məsələləri Dövlət Komitəsi daşınmaz əmlakın qeydiyyatı ilə yanaşı, dövlət əmlakının özəlləşdirilməsi sahəsində də şəffaflığın və operativliyin təmin olunması, elektron əmlak idarəçiliyi sisteminin qurulması məqsədilə davamlı tədbirlər həyata keçirir. Müasir informasiya texnologiyaları tətbiq edilir və bu istiqamətdə işlər sürətlə genişləndirilir. Bu tapşırıqlardan irəli gələrək komitə 2012-ci ildən elektron xidmətlərin tətbiqinə başlayıb. Bu il komitə yeni elektron xidmətlər istifadəyə verib.*



**Elektron xidmətlər sahəsində komitənin həyata keçirdiyi növbəti tədbir dövlət əmlakının özəlləşdirilməsi ilə bağlı hərraclarda iştirak üçün sifarişlərin qəbulunun elektron müstəviyə keçirilməsidir.**

Məqsəd özəlləşdirmə prosesində müasir yanaşmaları, modern xidmətləri önə çəkmək və getdikcə tətbiqini genişləndirməkdir. Komitədən bildirilib ki, qeyd olunan müasir yanaşmaların və modern xidmətlərin mahiyyəti dövlət əmlakının özəlləşdirilməsi prosesini tədricən elektronlaşdırmaq, vətəndaş-məmur ünsiyyətini maksimum azaltmaq, bununla vaxta qənaət etməkdən ibarətdir. Bu istiqamətdə komitə bir sıra nailiyyətlər əldə edib.

Belə ki, komitənin elektron xidmətlər portalında 5 interaktiv xidmət məhz dövlət əmlakının özəlləşdirilməsində keçirilən hərraclarla bağlıdır. Portalda orta və iri dövlət müəssisələrinin çevrilməsi nəticəsində yaradılan səhmdar cəmiyyətlərin səhmlərinin; kiçik dövlət müəssisə və obyektlərin; başa çatdırılmamış tikililər kimi özəlləşdirilən tikililərin özəlləşdirilməsinə dair hərraclarda iştirak üçün sifarişlərin elektron qəbulu kimi xidmətlər mövcuddur.

Həmçinin yerli icra hakimiyyəti orqanlarının sərəncamında olan, habelə yaşayış binalarında yerləşib dövlət vəsaiti hesabına inşa edilmiş istifadədə olmayan qeyri-yaşayış sahələrinin hərracda satışına dair sifarişlərin qəbulu kimi elektron xidmət də istifadəyə verilib.

Bundan əlavə, dövlət qurumlarının balansında olan nəqliyyat vasitələrinin özəlləşdirilməsi ilə bağlı keçirilən hərraclarda iştirakla bağlı sifarişlər də elektron qəbul edilir. Belə ki, portalda dövlət müəssisə və təşkilatlarının balansında olan istismar müddəti bitmiş nəqliyyat vasitələrinin və avadanlıqların hərraclar vasitəsilə satışına aid sənədlərin elektron qəbulu kimi yeni xidmət də vətəndaşların istifadəsindədir.

Ümumiyyətlə, dövlət əmlakının özəlləşdirilməsi sahəsində təşkil edilən elektron xidmətlər bu sahədə şəffaflığı, operativliyi və rahatlığı daha yüksək səviyyədə təmin etməyə xidmət edir. 2012-ci ildən etibarən müsadirə edilmiş və vərəsəlik hüququ əsasında dövlət mülkiyyətinə keçən əmlakların satışı ilə bağlı hərraclarda iştirak üçün internet vasitəsilə elektron formada sifarişlərin qəbulu və qeydə alınması həyata keçirilir.

Ümumilikdə, bu xidmət vasitəsilə indiyədək 200-dən çox əmlak üzrə verilmiş 44 elektron sifarişlə həmin əmlaklar hərraclarda özəlləşdirilib. Portalda təqdim olunan dövlət müəssisə və təşkilatlarının balansında olan istismar müddəti bitmiş nəqliyyat vasitələrinin və avadanlıqların hərraclar vasitəsilə satışına aid sənədlərin elektron qəbulu vasitəsilə 52 elektron sifariş qəbul edilmiş, 43 əmlak özəlləşdirilib. Bundan başqa, orta və iri dövlət müəssisələrinin çevrilməsi nəticəsində yaradılan səhmdar cəmiyyətlərinin səhmlərinin pul hərraclarında satışına dair sifarişlərin qəbulu ilə bağlı 7 elektron sifariş verilib, 5 səhmdar cəmiyyətinin səhmləri özgəninkiləşdirilib.

Başa çatdırılmamış tikililər kimi özəlləşdirilən obyektlərin hərracda satışına dair sifarişlərin qəbulu üzrə isə 9 elektron sifariş verilib, 8 əmlak satılıb. Kiçik dövlət müəssisələrinin (obyektlərin) hərracda satışına dair sifarişlərin qəbulu üzrə 23 elektron sifariş qəbul edilib və 23 əmlak özəlləşdirilib.

Qeyd edək ki, komitənin elektron xidmətlər portalında 20 interaktiv, 2 informativ olmaqla 22 e-xidmət istifadəçilərə təqdim olunur. Artıq bu xidmətlər sayəsində vətəndaşlar birbaşa öz evlərindən, heç bir yerə getmədən, əlavə vaxt sərf etmədən daşınmaz əmlakını qeydiyyatdan keçirmək üçün internet vasitəsi ilə onlayn müraciət edə bilirlər. Portalın istifadəyə verilməsi əhaliyə daha çevik, şəffaf, operativ və etibarlı xidmətlərin göstərilməsini təmin edir.

İndiyədək bu xidmətlər vasitəsilə Bakı və respublikanın müxtəlif bölgələrindən daxil olan müraciətlərin sayı 67200-dən çox olub. Hazırda elektron xidmətlərin sayının artırılması üzərində işlər aparılır.

www.e-gov.az

# Elektron xidmətlərdən istifadə və populyarlıq səviyyəsinin yüksəldilməsi ilə bağlı təkliflər hazırlanıb

**Elektron xidmətlərdən istifadə və populyarlıq səviyyəsinin yüksəldilməsi, elektron xidmətlərdən istifadə sahəsində vətəndaşların rahatlığı və məmnunluğunun yaradılması ilə bağlı təkliflər hazırlanıb. Elektron xidmətlərin Təşviqi üzrə İctimai Şura və Multimedia Mərkəzinin birgə əməkdaşlığı ilə hazırlanan təkliflər Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə təqdim edilib.**



Təkliflərə əsasən, dövlət qurumları tərəfindən təqdim olunan xidmətlərin əhəmiyyətlilik səviyyəsindən asılı olmaqla elektron formaya keçirilməsi təmin edilməli, elektron formaya keçirilməli olan xidmətlər üçün prioritet istiqamətlər və keçid planı hazırlanmalıdır. E-xidmətlərdən istifadə ilə bağlı rəsmi statistikanın təkmilləşdirilməsinə ehtiyac olması da vurğulanır. Həmçinin "Elektron hökumət" portalından və dövlət qurumlarının rəsmi saytlarından alınan eyni bir elektron xidmətin vahid statistikasını aparmaq, dövlət qurumlarının rəsmi internet resurslarının elektron xidmətlər bölməsində təqdim edilən xidmətlərin statistikasını qeyd etmək, eyni bir xidmətin ASAN vasitəsilə və müvafiq dövlət qurumu vasitəsilə əldə edilməsi ilə bağlı statistika hazırlamaq da təklif edilir.

Eyni zamanda mövcud elektron xidmətlər və onlardan istifadə qaydaları haqqında KİV-də, internetdə və digər sahələrdə reklam və tanıtım işlərini təşkil etmək, "Elektron hökumət" portalında bütün e-xidmətlərin istifadə təlimatlarını yerləşdirmək, elektron xidmətlərin ictimai təqdimatlarını təşkil etmək, e-xidmətlərin keyfiyyətsiz formada təqdim edilməsi ilə bağlı məsuliyyətin artırılması istiqamətində tədbirlər müəyyən etmək və ictimai nəzarət mexanizmlərini təkmilləşdirmək, elektron xidmətlərdən istifadə sahəsində vətəndaşların bilik və bacarıqlarının artırılması üçün zəruri tədbirlər hazırlamaq kimi təkliflər irəli sürülür.

Elektron xidmətlərin "bir pəncərə" prinsipi ilə təqdim edilməsi, informasiya sistemlərinin, dövlət servislərinin inteqrasiyası, FİN-ə qoşulması üçün konkret müddət müəyyən edilməklə keçid planının hazırlanması, elektron xidmətlərdən vətəndaşların daha rahat və effektiv üsullarla istifadəsi üçün mobil və onlayn tətbiqlərin hazırlanmasının stimullaşdırılması, bu məqsədlə dövlət informasiya sistemlərinə özəl sektorun giriş imkanlarının yaradılması da təkliflərdə əksini tapıb.

# Azərbaycan "CEBIT Bilişim-2014" konfransında geniş tərkibli nümayəndə heyəti ilə təmsil olunacaq

**Azərbaycan Rabitə və Yüksək Texnologiyalar Nazirliyi geniş nümayəndə heyəti ilə Türkiyədə keçiriləcək "CEBIT Bilişim-2014" konfransında iştirak edəcək.**




Avrasiya ölkələri arasında ən böyük və əhəmiyyətli tədbirlərdən biri olan "CEBIT Bilişim-2014" qlobal konfransı sentyabrın 11-14-də İstanbulda keçiriləcək.

Azərbaycanı tədbirdə rabitə və yüksək texnologiyalar nazirinin birinci müavini İltimas Məmmədovun rəhbərlik etdiyi geniş tərkibli nümayəndə heyəti təmsil edəcək. Nümayəndə heyətinin tərkibinə dövlət və özəl qurumların nümayəndələri daxil olacaq.

Tədbirdə 72 mindən çox peşəkar mütəxəssisin iştirakı gözlənilir. Tədbir çərçivəsində yüksək səviyyəli görüşlərin, birgə "B2B" tədbirlərin, tematik sessiyaların, təqdimatların keçirilməsi nəzərdə tutulur.

Sərgi-konfransın əsas müzakirə mövzuları informasiya texnologiyaları, telekommunikasiya, rəqəmli media və istehlakçı elektronikası, dünya üzrə tendensiyalar və innovasiyalar, "ağıllı" şəhər, "ağıllı" dövlət, "ağıllı" bələdiyyə, elektron hökumət həlləri, İT sahəsində qadınlar, məhdudiyyətsiz məlumat və s. olacaq.

# Artıq dövlət qulluğuna qəbul olmaq istəyənlər biliklərini "Elektron hökumət" portalında onlayn sınaq vasitəsilə yoxlaya bilərlər



*Bir müddət öncə məlumat vermişdik ki, Azərbaycan Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya "Onlayn sınaq test imtahanlarının keçirilməsi" xidmətini istifadəyə verib və sözügedən xidmət "Elektron hökumət" portalına ("e-gov.az") inteqrasiya edilib.*

Elektron xidmət inzibati vəzifələrin beşinci-yeddinci təsnifatlarına uyğun olan vakant vəzifələr üzrə dövlət qulluğuna qəbul olmaq istəyən vətəndaşlar ilə onlayn sınaq test imtahanının keçirilməsi üçün istifadə edilir.

Xidmətin göstərilməsi nəticəsində vətəndaşa sınaq imtahanının nəticəsi barədə arayış verilir.

Qeyd edək ki, ümumilikdə, Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın "Elektron hökumət" portalı istifadəçilərinin ixtiyarına verdiyi xidmətlərinin sayı 5-ə çatıb.

# Dövlət Komissiyasının elektron ünvanına daxil olan sorğular hansı mövzuları əhatə edib?

**İyun ayı ərzində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın elektron ünvanına 116 sorğu daxil olub. Bu barədə komissiyanın daxil olan sorğuların statistikası, məzmunu və cavablandırılmasına dair hesabatında deyilir.**

Elektron sorğular müxtəlif mövzuları əhatə edib. Belə ki, bu müddət ərzində komissiyaya 63 CV göndərilib. Dövlət qulluğuna qəbul qaydaları ilə əlaqədar 17, digər məsələlərlə bağlı 14 e-sorğu ünvanlanıb.

Bununla yanaşı, vətəndaşlardan 8 təşəkkür məktubu qəbul olunub.

Komissiyanın elektron ünvanına daxil olan sorğulardan 4 ədədi test imtahanı mərhələsindən keçməyərək yenidən müsabiqədə iştirak etmək, 3 ədədi 1, 23, 30 aprel və 20 may tarixlərində elan edilən müsabiqələrin test imtahanı mərhələsinin keçirilmə tarixi, 2 ədədi 1, 23, 30 aprel və 20 may tarixlərində elan edilən müsabiqələrin müsahibə mərhələsinin keçirilmə tarixi ilə bağlı olub.

Sadalananlardan əlavə, hər biri 1 ədəd olmaqla 23, 30 aprel və 20 may tarixlərində elan edilən müsabiqələrdə iştirak etmək üçün onlayn qeydiyyatdan keçmək, 1, 23, 30 aprel və 20 may tarixlərində elan edilən müsabiqələrin test imtahanı mərhələsi, 1, 23, 30 aprel və 20 may tarixlərində elan olunmuş ümumi müsahibələr, yeni məzun olan vətəndaşların müsabiqələrdə iştirak etmələri və növbəti müsabiqənin vaxtı mövzularına dair sorğular göndərilib.



Qeyd edək ki, bütün sorğular qanunvericilikdə nəzərdə tutulan müddətdə cavablandırılıb.

www.e-gov.az

# Sürücülərlə bağlı informasiya bazası yaradılır

**Ölkədə sürücülərlə bağlı informasiya bazası yaradılacaq. Burada əsas məqsəd marşrut xətlərində avtobusları idarə edən şəxslərlə bağlı məlumatların toplanmasıdır.**



Artıq bu istiqamətdə müəyyən işlər görülür və ölkədə ehtiyat sürücü bazası formalaşdırılır. Nəqliyyat Nazirliyi (NN) tərəfindən həyata keçirilən sözügedən fəaliyyət nəticəsində sahibkarlara sürücülər barədə məlumat veriləcək.

Nazirlikdən bildirilib ki, hər hansı bir avtobusda qəza törədən sürücü sabah digər bir sahibkara müraciət edərək başqa marşrutda işə düzəlmək istəyərsə, onun barədə sahibkara məlumat əldə edə biləcək.

“Yəni həmin sürücünün iş qabiliyyətinin yaxşı və ya pis olması, qəza törədib-törətməməsi barədə sahibkar bilgiləndiriləcək”, – deyə NN-dən bildirilib.




# “Forbes”: “Azərbaycanın mobil ID sistemi inqilabi texnologiya kimi dünyada qəbul olunur”



Eesti digirevolutsioon ajab **Aserbaidžaanis** juuri

Bu günlərdə Estoniyanın “Forbes” jurnalında Azərbaycanın İKT sektorunda yaşanan texnoloji inqilaba həsr olunmuş “Estoniyanın rəqəmli inqilabı öz davamını Azərbaycanda tapdı” adlı məqalə dərc edilib. Məqalədə qeyd olunur ki, ölkə elektron dövlət xidmətləri və müvafiq infrastrukturun inkişafı sahəsində canlanma yaşayır və hətta texnologiyaların inkişafına görə Qərbi Avropanı geridə qoyub.

Dəyişikliklər başgicəllədən sürətlə baş verir: Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin böyük köməyi və töhfəsi nəticəsində, hazırda “Elektron hökumət” portalında nə az, nə çox 450-dən çox qeydiyyatdan keçmiş elektron xidmət mövcuddur. Bundan başqa, istifadəçilərə rəqəmli şəxsiyyətlərini mobil telefon vasitəsi ilə təsdiqləməyə imkan verən təhlükəsiz “Asan İmza” sisteminin tətbiqinə başlanılandan sonra Azərbaycanda mobil ID vasitəsi ilə 1 milyon 300 min rəqəmli imza təqdim edilib və onlar vasitəsi ilə 1 milyon 250 min tranzaksiya həyata keçirilib...

... Estoniyada olduğu kimi, Azərbaycan da artıq dövlət infrastrukturunun inkişafında özəl sektordan bəhrələnə bilir. Estoniyada bank əməliyyatlarından başlayaraq avtomobil parklamasınadək bütün işlər təhlükəsiz məlumat mübadiləsi və mobil ID sistemi üzərindən smartfon vasitəsi ilə reallaşdırılır. Azərbaycanda mobil ID-dən səmərə əldə edən şirkətlərdən biri “Hesab.az” onlayn ödəniş portalının yaradıcısı “GoldenPay” şirkəti olub. Şirkətin rəhbəri Fərid İsmayılzadə bildirib ki, mobil ID sistemi inqilabi texnologiyadır.

Bu sistem daha yüksək təhlükəsizлık тəлəб edən xidmətlərin göstərilməsinə imkan verəcək. Bu, internet-bankçılıq, səhm ticarəti və s. xidmətlərin göstərilməsi üçün ideal vasitədir...

...yaxın zamanda “ASAN Pay” ödəniş portalı işə başlayacaq. Bu portal vasitəsi ilə mobil telefon üzərindən kommersiya ödənişləri ilə yanaşı, bütün dövlət rüsumlarını da istənilən elektron kanallar vasitəsi ilə (bank hesabı, kredit kartı, mobil pul cüzdanı) ödəmək olacaq. Portal vasitəsi ilə istifadəçilər cərimələr və digər dövlət bildirişləri haqda məlumatları birbaşa mobil telefonlarından ala biləcəklər.

Göründüyü kimi, Azərbaycanın hədəfləri böyük, əldə etdiyi uğurlar danılmazdır. Hesab edirik ki, ölkənin dövlət və özəl sektoru innovativ yeniliklərə alışan gənc nəslin tələblərinə cavab vermək üçün yetərincə çalışmalı olacaqlar ...

# Təhsil Nazirliyi: "İKT və elektron xidmətlərin geniş tətbiqi ilə həyata keçirilən müəllimlərin işə qəbulu ölkədə ən çevik qəbul mexanizmi hesab edilə bilər"

**Hazırda müəllimlərin işə qəbulu sahəsində tətbiq edilən qaydalar şəffaflığı və obyektivliyi təmin etməklə yanaşı, ölkədə ən çevik qəbul mexanizmi hesab edilə bilər.**

Belə ki, informasiya-kommunikasiya texnologiyalarının (İKT) və elektron xidmətlərin geniş tətbiqi vasitəsilə həyata keçirilən bu mexanizmin (elektron ərizə, elektron imtahan, elektron yerləşdirmə, elektron məlumatlandırma) tətbiqi hər bir iştirakçıya imkan verir ki, imtahan nəticəsi ilə imtahan başa çatan kimi auditoriyadan çıxmamış tanış olsun.

Həmçinin, nəticələr dərhal müəllimin "Şəxsi səhifəsi"nə göndərilir. Yəni müəllim imtahan verdiyi gün hansı məktəbə işə qəbul olunduğu və ya nə üçün müsabiqədən keçə bilməməsi barədə məlumatlandırılır. Bu barədə Təhsil Nazirliyindən məlumat verilib.

Müəllimlərin işə qəbulu qaydalarının şəffaflığı və obyektivliyi təmin etməsinin nəticəsidir ki, cari ilin iyul ayında keçirilmiş müsabiqədə 18 min nəfərədək müəllimin iştirak etməsinə baxmayaraq, nəticələrdən apelyasiya verən olmayıb:

"Təhsil Nazirliyi tərəfindən müəllimlərin işə qəbulu üzrə aparılan sistemli işin, tətbiq edilən yeni mexanizm və stimullaşdırıcı tədbirlərin nəticəsidir ki, hazırda kənd



məktəblərində pedaqoji kadrlara ehtiyac minimuma enib və son müsabiqədən sonra ölkə üzrə vakant müəllim yerlərinin sayı ümumi müəllim sayının 1 faizindən də aşağıdır. Halbuki, 7 il əvvəl ölkənin kənd məktəblərində 10 min müəllimə ehtiyac müəyyən edilmişdi. Hazırda ölkənin ümumi təhsil məktəblərində 143451 nəfər müəllim çalışır".

# "Azərbaycanda Elektron Hökumət üçün Təlim Mərkəzinin Yaradılması" başa çatmaq üzrədir

**Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOICA) "Azərbaycanda Elektron Hökumət üçün Təlim Mərkəzinin Yaradılması" layihəsi çərçivəsində işlər yekun mərhələsindədir.**

Artıq Koreyadan ölkəmizə ezam edilən mütəxəssislər tərəfindən Bakı şəhəri ilə yanaşı, Naxçıvan, Gəncə, Sumqayıt, Mingəçevir, Bərdə, Qazax, Zaqatala, Lənkəran, İmişli, Qəbələ, Göyçay, Şirvan, Qusar, Şamaxı və Şəki şəhərində Telekommunikasiya qovşaqlarının binasında Təlim mərkəzlərinin yaradılması üçün avadanlıqların qurulması işlərini başa çatdırıblar.

Mütəxəssislər Təlim mərkəzlərinin zəruri informasiya texnologiyaları avadanlıqları ilə təmin edilməsinə paralel mərkəzlərdə çalışacaq mütəxəssislərin zəruri bilik və bacarıqlarının artırılması işlərini də həyata keçirirlər. Koreyalı mütəxəssislər regionlarda yerli təlim mərkəzlərində quraşdırılmış avadanlıqların statusunu təftiş edərək Bakı təlim mərkəzi ilə şəbəkələrin yoxlanılmasını həyata keçirirlər.

Xatırladaq ki, "Azərbaycanda Elektron Hökumət üçün Təlim Mərkəzinin Yaradılması" ilə bağlı Koreya Respublikasının Xarici İşlər Nazirliyi və Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi arasındakı Qrant Razılaşması 2013-cü ilin aprelin 18-də Koreya Respublikasının Azərbaycandakı səfiri Çoi Suk İnn və rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov tərəfindən imzalanıb.

3,7 milyon ABŞ dolları məbləğində büdcəyə malik layihə Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOİKA) tərəfindən həyata keçirilir. Layihənin məqsədləri elektron Təhsil İnformasiya Sisteminin yaradılması, mərkəzi və regional e-hökumət təlim mərkəzinin qurulmasına dəstək verilməsi, informasiya texnologiyaları avadanlıqlarının təchiz edilməsi, azərbaycanlı dövlət qulluqçularının İKT potensialının artırılması, İKT və e-hökumət potensialının təşviq olunmasıdır.

www.e-gov.az

# Elektron xidmətlərdən istifadə üçün yaş baryeri yoxdur

Elektron xidmətlərdən istifadə yaş həddi tanımır. 1932-ci il təvəllüdlü fərdi sahibkar Baxışov Ələkbər Məmməd oğlunun "Elektron imza" kartına sahib olması məhz belə bir baryerin olmamasının təzahürü, həmçinin elektron xidmətlərə getdikcə artmaqda olan marağın real göstəricisidir. "Rabitə dünyası" ilə söhbətində uzun illər ticarət sahəsində çalışdığını və hazırda da fəaliyyətini davam etdirdiyini bildirən ən yaşlı kart sahibi biznes prosedurları üçün "Elektron imza"ya ehtiyacı olduğunu vurğulayıb.

"Elektron imza" alınması prosedurları sizi yormadı ki ?" sualına cavab olaraq, Ə.Baxışov əksinə, xidmətdən məmnun qaldığını bildirib:

"Elektron imza" alınması sənədlərimi ayın 8-də təqdim etmişdim. Heç bir ləngimə, bürokratik əngəllər olmayıb, əksinə, proses çox rahat həyata keçirilib. Çox razı qaldım. Ticarət sahəsində fəaliyyətimi bundan sonra da davam etdirəcəyəm, "Elektron imza"nın da fəaliyyətimdə mənə böyük faydası olacağını düşünürəm".

Bu imzanın faydası və üstünlüklərindən bir qədər gec xəbər tutduğunu da təəssüflə bildirən Ə.Baxışov yaxın ətrafına, xüsusən tanışlarına ondan istifadə etməyi məsləhət görəcəyini qeyd edib: "Ətrafımda bu imzadan istifadə etməyi tövsiyə edə biləcəyim xeyli insan var. Eyni sektorda calışdığım oğlum da "Elektron imza" alınması üçün müraciət edəcək".

Sahibkar dövlət qurumları tərəfindən təqdim edilən xidmətlərin elektronlaşdırılması və bu xidmətlərin internet üzərindən təqdim edilməsini də müsbət dəyərləndirib:

“Yeri gəlmişkən, özüm də internet istifadəçisiyəm, mütəmadi olaraq e-maili izləyib, göndərilən məktubları oxuyu-




ram". Söhbətdən sonra 82 yaşlı "Elektron imza" sahibinə Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzi tərəfindən birillik yüksəksürətli internet, genişzolaqlı internetə qoşulmaq üçün modem hədiyyə olunub. Həmçinin müraciətçinin yaşı, eyni zamanda, gələcəkdə kartın itirilməsi, unudulması və s. kimi halların baş verə bilmə riski nəzərə alınaraq, ona iki ədəd kart oxuyucusu, iki ədəd elektron imza kartı təqdim edilib.

Qeyd edək ki, hazırda "Elektron imza" kartı alanların sayı 22 mini ötüb. Elektron imza müasir dövrün tələbləri ilə ayaqlaşmaq istəyənlər üçün effektiv həll hesab edilir və elektron imza - elektron dünyada şəxsiyyəti müəyyənləşdirmə vasitəsidir.

# Birləşmiş Krallığın www.gov.uk elektron xidmətlər portalında yeni – “Dövlət əmlakının axtarışı” sistemi istifadəyə verilib

**Böyük Britaniyada dövlət əmlakı və torpaq sahələri barədə məlumatlar əks olunan yeni elektron xidmət istifadəyə verilmişdir. Bu servis vasitəsilə təcili yardım stansiyalarından istifadə olunmayan hava limanlarınadək sıyahıya alınmış bütün dövlət əmlakının axtarışı mümkündür.**

Avqustun 20-i istifadəyə verilmiş “Dövlət əmlakının axtarışı” sistemi hökumətin idarəçilikdə şəffaflığın artırılması, idarəetmə xərclərinin azaldılması, yenilənmə və tərəqqi istiqamətindəki hədəflərini dəstəkləyir. Mövcud qanunvericiliyə əsasən, vətəndaşlar dövlət ərazilərinin və ya əmlakının iqtisadi baxımdan daha səmərəli istifadə oluna biləcəyi, yaxud onların dövlətə lazım olmadığı iddiası ilə müraciət ünvanlayaraq, satılmasını tələb edə bilərlər. Əgər hökumət qeyri-səmərəli istifadə edildiyi iddia edilən dövlət əmlakının əslində səmərəli istifadə edildiyini sübut edə bilməzsə, bu zaman həmin əmlakın cari istifadəsi ləğv ediləcək və daha səmərəli istifadəyə veriləcək. Dauninq küçəsi və Xəzinədarlıq Binası kimi tarixi abidələr satılmayacaq.




Lakin bu onlayn sistem bir çox dövlət əmlakının daha səmərəli istifadəsinə şərait yaradacaq və dövlət büdcəsinə qənaət edəcəkdir.

İlkin olaraq, yalnız istifadə edilməyən, yarasız dövlət əmlakına iddia hüququ verilmişdisə, artıq istifadə edilməyən, eləcə də istifadədə olan mərkəzi dövlət əmlakının perspektivli istifadəsi də daxil edildi.

Hər bir vətəndaş müvafiq formanı dolduraraq, iddia etdiyi dövlət əmlakının detallarını göstərərək, hökumətin onları hansı səbəblərə görə azad etməli olduğunu bildirə bilər.

# Azərbaycan beynəlxalq İKT Sammitində təmsil olunacaq

**Azərbaycan Daşkənddə sentyabrın 23-də keçiriləcək İKT Sammitində təmsil olunacaq. Sammit Daşkənddə keçiriləcək "İnfoCom-2014" İKT Həftəsi çərçivəsində təşkil olunacaq.**

Bu il Sammitdə Azərbaycanla yanaşı, Koreyanın, Rusiyanın, Belarusun, Qazaxıstanın, Tacikistanın, Estoniyanın, Almaniyanın, Niderlandın, Çex Respublikasının və digər ölkələrin nümayəndələrinin iştirakı gözlənilir. Sammit hər il beynəlxalq təşkilatların, dövlət və biznes sektorunun nümayəndələrini ətrafında toplayır. Mütəxəssislər sahənin son bir ildə inkişaf tempini, dünya tendensiyalarını müzakirə etmək, bu sahədə təcrübə mübadiləsi aparmaq və İKT sahəsinin gələcək inkişaf istiqamətlərini müəyyən etmək üçün toplaşır. Artıq tədbirə qeydiyyat və məruzəçilərin məruzələrinin qəbuluna başlanılıb. Teledebatların ümumi sayı 500 nəfərdən çox olacaq.

Sammitin seksiya iclasları "Dövlət sektorunda İKT", "Biznesdə İKT" və "İnformasiya resursları və internet" mövzuları üzrə aparılacaq. Əsas müzakirə mövzularından biri Elektron Hökumətin inkişafı olacaq. İştirakçılar eyni zamanda ölkədə milli İKT-nin inkişafı proqramlarının reallaşdırılması sahəsində nailiyyətlər və problemlər, İKT-nin müxtəlif sahələrdə tətbiqi, tənzimləmə siyasəti və s. aktual məsələləri müzakirə edəcəklər.

# Hökumət Ödəniş Portalına yeni xidmətlər inteqrasiya olunub

**Hökumət Ödəniş Portalının (HÖP) infrastrukturuna hazırda ölkədə fəaliyyət göstərən bütün kommunal xidmət təşkilatları ilə yanaşı, dövlət orqanları, stasionar telefon xidməti üzrə qurumlar və bir mobil telefon operatoru inteqrasiya olunub.**

HÖP vergi, rüsum və digər büdcə ödənişlərinin yalnız bank və ya ödəniş kartları vasitəsilə həyata keçirilməsi, həmçinin dövlət orqanları tərəfindən göstərilən xidmətlərə görə rüsumların real vaxt rejimində elektron formada ödənilməsinin təmin edilməsi məqsədilə Mərkəzi Bank (MB) tərəfindən yaradılıb.

MB-dan qeyd edilib ki, son illərdə qurum tərəfindən elektron ödəniş sistemlərinin yaradılması və inkişaf etdirilməsi istiqamətində beynəlxalq maliyyə qurumlarının texniki və maliyyə dəstəyindən istifadə edilməklə həyata keçirilən ardıcıl və davamlı islahatların nəticəsində ən müasir texnologiya və proqram təminatlarına əsaslanan arxitekturaya malik olan Milli Ödəniş Sistemi (MÖS) yaradılıb. MÖS-in bir komponenti məhz KÖMİS - Kütləvi Ödənişlər üzrə Mərkəzləşdirilmiş İnformasiya Sistemidir.

Kütləvi Ödənişlər üzrə Mərkəzləşdirilmiş İnformasiya Sisteminin platformasında Hökumət Ödəniş Portalı yaradılıb. Sistemin konsepsiyasının əsas mahiyyəti respublikada fəaliyyət göstərən kommunal və digər kütləvi xidmət təşkilatları üzrə mərkəzləşdirilmiş elektron abonent bazasını yaratmaq, bu abonentlərə sistemə qoşulmuş maliyyə qurumlarının istənilən ödəniş məntəqəsində borclarını öyrənmək və ən müasir ödəniş mexanizmləri vasitəsilə ödənişlərini aparmaq imkanı yaratmaqdan ibarətdir.

Dünyanın bir çox ölkəsində geniş istifadə olunan "CheckFree i-Series" informasiya sisteminin bazasında yerli tələblərə tam uyğunlaşdırılmış bu sistem 2008-ci ildən istifadəyə verilib.

Ən müasir texnologiya və proqram təminatına əsaslanan bu sistemin istifadəyə verilməsi nəticəsində abonentlərə sistemə qoşulmuş maliyyə qurumlarının istənilən ödəniş xidməti nöqtəsində kommunal xidməti borcları haqqında tam informasiya almaq və istənilən ödəniş mexanizmləri (nağd yolla, ödəniş kartları, bank köçürmələri, "Internet Banking") vasitəsilə ödəniş aparmaq imkanı yaradılıb. Sistemə qoşulmuş kütləvi xidmət müəssisələrinin xeyrinə qəbul edilən ödənişlər haqqında məlumatlar 30 saniyə ərzində həmin təşkilatlara çatdırılır. Eyni zamanda iştirakçı təşkilatların daxili informasiya sistemi ilə yaradılmış yüksəksəviyyəli məlumat mübadiləsi interfeysi vasitəsilə bu təşkilatların elektron abonent bazasında baş verən dəyişikliklər real rejimdə mərkəzi informasiya bazasına ötürülür.

# Məlumat Hesablama Mərkəzi Azərbaycanda informasiya təhlükəsizliyi üzrə "ISO/IEC 27001:2005" standartını əldə etdi

**Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) Məlumat Hesablama Mərkəzi informasiya texnologiyaları və təhlükəsizliyin təminatı sistemi üzrə "ISO/İEC 27001:2005" beynəlxalq standartın tələblərinə uyğun növbəti sertifikasiya auditindən uğurla keçib.**

Bununla da MHM respublikada informasiya təhlükəsizliyi üzrə bu sertifikatı əldə edən ilk dövlət müəssisəsi oldu. Mərkəzin vətəndaşlara, dövlət orqanlarına və hüquqi şəxslərə elektron imza üçün təkmil sertifikatların verilməsi; təkmil sertifikatların idarə olunması: yaradılması, yenilənməsi, dayandırılması və ləğv edilməsi; vaxt göstəricilərinin qeyd edilməsi üzrə fəaliyyət sahələri "ISO/İEC 27001:2005" beynəlxalq standartın tələbləri əsasında yoxlanılıb və sertifikatlaşdırılıb. Sertifikat 19 avqust 2017-ci il tarixinə qədər qüvvədə qalır. Təkrar sertifkatlaşdırma auditinin 24 iyun 2017-ci il tarixinə qədər həyata keçirilməsi nəzərdə tutulur. MHM bu sertifikatı əldə etdikdən sonra növbəti addım kimi, Milli Sertifikat Xidmətləri Mərkəzinin (MSXM) dünyada sertifikat xidmətləri göstərən mərkəzlərin inanılmış siyahısına (trusted list) daxil edilməsi istiqamətində işlərini davam etdirəcək.

Qeyd edək ki, Məlumat Hesablama Mərkəzinin sertifikatlaşdırılması Böyük Britaniyanın "UKAS" akkreditasiya mərkəzində akkreditə olunmuş İsveçrənin "SGS" şirkəti tərəfindən yerinə yetirilib. Müstəqil ekspertizalar həyata keçirən şirkət sertifikatlaşdırma sahəsində dünya lideri hesab edilir.

www.e-gov.az

## 01.08.2014 – 31.08.2014-cü il dövrü ərzində "Elektron hökumət" portalı vasitəsilə ən çox istifadə olunan e-xidmətlərin siyahısı:

| № | Xidmətin adı | Təchizatçının adı | Say |
|---|---|---|---|
| 1 | Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumatın verilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 489759 |
| 2 | Namizədlərə, sınaq imtahanı iştirakçılarına imtahan nəticələri haqqında məlumatların internet və ya qısa mesaj (SMS) vasitəsilə verilməsi | TQDK | 272292 |
| 3 | Namizədlərin elektron ixtisas seçimi ərizələrinin onlayn qəbulu | TQDK | 216298 |
| 4 | Telefon nömrəsi üzrə axtarış | RYTN | 65161 |
| 5 | Əmək müqaviləsi bildirişləri barədə məlumatların işçilər tərəfindən əldə edilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 39384 |
| 6 | Rabitə və kommunal xidmət haqlarının internet vasitəsilə ödənilməsi | RYTN | 13249 |
| 7 | Sığortaolunanın onlayn uçota alınması | Dövlət Sosial Müdafiə Fondu | 8355 |
| 8 | TQDK-nın virtual ödəmə kartlarının onlayn və qısa mesaj (SMS) vasitəsilə satışı | TQDK | 6360 |
| 9 | Sığortaolunanlara məlumatların verilməsi | Dövlət Sosial Müdafiə Fondu | 4959 |
| 10 | E-İmza - Operator üçün menyu | RYTN | 3869 |
| 11 | Sığortaedənin uçot nömrəsinin öyrənilməsi | Dövlət Sosial Müdafiə Fondu | 3010 |
| 12 | Pensiya kalkulyatoru | Dövlət Sosial Müdafiə Fondu | 1656 |
| 13 | Daşınmaz əmlakın ipotekasının dövlət qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu | Əmlak Məsələləri Dövlət Komitəsi | 1402 |
| 14 | Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 1225 |
| 15 | Mobil cihazların qeydiyyatdan keçirilməsi | RYTN | 1218 |
| 16 | Pensiyaçıya məlumatların verilməsi | Dövlət Sosial Müdafiə Fondu | 826 |
| 17 | Məcburi dövlət sosial sığorta vəsaitlərinin onlayn ödənilməsi | Dövlət Sosial Müdafiə Fondu | 791 |
| 18 | Mobil cihazların IMEI kodunun yoxlanılması | RYTN | 760 |
| 19 | "Abituriyent ərizəsi"nin nömrəsinin axtariş sistemi | TQDK | 741 |
| 20 | Yol hərəkəti qaydalarının pozuntusu ilə əlaqədar tətbiq edilən cərimələr və cərimə balları barədə məlumatlar | Daxili İşlər Nazirliyi | 731 |

## 01.09.2014-cü il tarixə Dövlət İnformasiya Ehtiyatlarının və Fərdi Məlumatların İnformasiya Sistemlərinin Dövlət Reyestrlərinə daxil edilmiş məlumatlar barədə

*bütün qurumlar üzrə*

| Dövlət İnformasiya Ehtiyaları | Fərdi Məlumatların İnformasiya Sistemləri | Cəmi |
|---|---|---|
| 74 | 147 | 221 |

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 181-4-cü maddəsinə əsasən, fərdi məlumatlar haqqında qanunvericiliklə dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməyən informasiya sistemində fərdi məlumatların toplanılmasına və ya işlənilməsinə görə 300 manatdan 500 manatadək cərimə tətbiq edilir.

## 31.08.2014 tarixə təqdim olunmuş elektron imza vəsiqələri barədə statistik məlumat

| Dövlət qurumlarına verilmiş sertifikatlar | Hüquqi şəxslərə verilmiş sertifikatlar | Vətəndaşlara verilmiş sertifikatlar | Cəmi |
|---|---|---|---|
| 14490 | 2956 | 5399 | 22845 |

## 2014-cü ilin avqust ayı ərzində bütün qurumlar üzrə "Elektron hökumət" portalı tərəfindən təqdim olunan e-xidmətlərdən istifadə barədə statistik məlumat:

| № | Xidmət təchizatçısının adı | Elektron xidmətlər | Xidmətlərdən istifadə |
|---|---|---|---|
| 1 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 6 | 529633 |
| 2 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası | 14 | 497128 |
| 3 | Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 44 | 90404 |
| 4 | Dövlət Sosial Müdafiə Fondu | 13 | 21637 |
| 5 | Əmlak Məsələləri Dövlət Komitəsi | 37 | 4809 |
| 6 | Daxili İşlər Nazirliyi | 2 | 1358 |
| 7 | Elektron Hökumət Portalı | 3 | 1086 |
| 8 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 2 | 703 |
| 9 | "AzərEnerji" ASC | 2 | 398 |
| 10 | "Azərsu" ASC | 2 | 373 |
| 11 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 13 | 336 |
| 12 | Ədliyyə Nazirliyi | 11 | 258 |
| 13 | Mərkəzi Seçki Komissiyası | 6 | 210 |
| 14 | Səhiyyə Nazirliyi | 7 | 205 |
| 15 | Dövlət Gömrük Komitəsi | 5 | 199 |
| 16 | Təhsil Nazirliyi | 1 | 181 |
| 17 | Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 4 | 160 |
| 18 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 112 |
| 19 | Dövlət Statistika Komitəsi | 5 | 88 |
| 20 | Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | 2 | 81 |
| 21 | Milli Arxiv İdarəsi | 2 | 77 |
| 22 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 13 | 58 |
| 23 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 44 |
| 24 | Dövlət Sərhəd Xidməti | 2 | 39 |
| 25 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 34 |
| 26 | Xarici İşlər Nazirliyi | 1 | 34 |
| 27 | Nəqliyyat Nazirliyi | 4 | 31 |
| 28 | Baş Prokurorluq | 1 | 26 |
| 29 | Qiymətli Kağızlar Üzrə Dövlət Komitəsi | 11 | 23 |
| 30 | Dövlət Dəniz Administrasiyası | 13 | 22 |
| 31 | Dövlət Miqrasiya Xidməti | 1 | 21 |
| 32 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 1 | 21 |
| 33 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 20 |
| 34 | Fövqəladə Hallar Nazirliyi | 3 | 19 |
| 35 | Energetika Nazirliyi | 6 | 18 |
| 36 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 11 |
| 37 | Kənd Təsərrüfatı Nazirliyi | 9 | 10 |
| 38 | Müəllif Hüquqları Agentliyi | 5 | 9 |
| 39 | Gənclər və İdman Nazirliyi | 4 | 9 |
| 40 | İqtisadiyyat və Sənaye Nazirliyi | 5 | 7 |
| 41 | Satınalmalar üzrə Dövlət Agentliyi | 3 | 3 |
| | **CƏMİ** | **283** | **1149895** |

www.e-gov.az

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 17 oktyabr tarixli 235 nömrəli Qərarı ilə təsdiq olunmuş elektron xidmətlərin portala inteqrasiyası barədə

# MƏLUMAT

*01.09.2014*

| Sıra № | DÖVLƏT QURUMUNUN ADI | Təsdiq olunmuş e-xidmətlərin sayı | Təsdiq olunmuş e-xidmətlərdən portalda olanların sayı | Portalda yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Qurumların öz saytlarında yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Təsdiq olunmuş e-xidmətlərdən qurumların öz saytlarında olanların sayı |
|---|---|---|---|---|---|---|
| 1 | Xarici İşlər Nazirliyi | 3 | 1 | 1 | 3 | 3 |
| 2 | Daxili İşlər Nazirliyi | 24 | 1 | 2 | 24 | 24 |
| 3 | Ədliyyə Nazirliyi | 18 | 9 | 11 | 14 | 13 |
| 4 | Fövqəladə Hallar Nazirliyi | 3 | 3 | 3 | 3 | 3 |
| 5 | Maliyyə Nazirliyi | 4 | 0 | 0 | 8 | 3 |
| 6 | İqtisadi İnkişaf Nazirliyi | 7 | 7 | 7 | 11 | 7 |
| 7 | Vergilər Nazirliyi | 60 | 49 | 52 | 54 | 53 |
| 8 | Sənaye və Energetika Nazirliyi | 8 | 6 | 6 | 7 | 5 |
| 9 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 12 | 6 | 11 | 1 | 0 |
| 10 | Kənd Təsərrüfatı Nazirliyi | 14 | 12 | 19 | 21 | 14 |
| 11 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 18 | 17 | 17 | 22 | 18 |
| 12 | Mədəniyyət və Turizm Nazirliyi | 17 | 0 | 0 | 6 | 5 |
| 13 | Təhsil Nazirliyi | 8 | 1 | 2 | 27 | 4 |
| 14 | Səhiyyə Nazirliyi | 38 | 31 | 31 | 32 | 31 |
| 15 | Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 16 | 10 | 34 | 27 | 16 |
| 16 | Nəqliyyat Nazirliyi | 5 | 4 | 4 | 5 | 5 |
| 17 | Gənclər və İdman Nazirliyi | 6 | 4 | 4 | 5 | 5 |
| 18 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 1 | 1 | 1 | 1 |
| 19 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 10 | 10 | 12 | 13 | 10 |
| 20 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 21 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 4 | 4 | 4 | 4 |
| 22 | Dövlət Gömrük Komitəsi | 11 | 0 | 5 | 14 | 11 |
| 23 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 9 | 9 | 13 | 10 | 9 |
| 24 | Əmlak Məsələləri Dövlət Komitəsi | 27 | 25 | 28 | 29 | 29 |
| 25 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2 | 1 | 1 | 2 | 2 |
| 26 | Dövlət Statistika Komitəsi | 5 | 5 | 5 | 5 | 5 |
| 27 | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 6 | 0 | 0 | 1 | 1 |
| 28 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 29 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 13 | 13 | 13 | 13 |
| 30 | Dövlət Sosial Müdafiə Fondu | 21 | 11 | 12 | 21 | 21 |
| 31 | AR Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 7 | 6 | 6 | 7 | 7 |
| 32 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) | 14 | 13 | 14 | 14 | 13 |
| 33 | Dövlət Miqrasiya Xidməti | 11 | 1 | 1 | 10 | 10 |
| 34 | Dövlət Sərhəd Xidməti | 2 | 2 | 2 | 3 | 2 |
| 35 | Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 5 | 0 | 0 | 8 | 5 |
| 36 | Müəllif Hüquqları Agentliyi | 5 | 5 | 5 | 5 | 5 |
| 36-1 | Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi | 1 | 0 | 0 | 1 | 1 |
| 37 | Satınalmalar üzrə Dövlət Agentliyi | 3 | 0 | 0 | 3 | 3 |
| 37-1 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 3 | 2 | 2 | 3 | 3 |
| 38 | Dövlət Mülki Aviasiya Administrasiyası | 3 | 0 | 0 | 3 | 3 |
| 39 | Dövlət Dəniz Administrasiyası | 18 | 18 | 18 | 18 | 18 |
| 40 | Milli Arxiv İdarəsi | 2 | 2 | 2 | 1 | 1 |
| | **CƏMİ:** | **446** | **291** | **350** | **461** | **388** |

| | DÖVLƏT QURUMUNUN ADI | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | "Meliorasiya və su təsərrüfatı" ASC | | | 2 | 2 | |
| 2 | "Azərsu" ASC | | | 2 | 3 | |
| 3 | "Azərenerji" ASC | | | 2 | 2 | |
| 4 | Mərkəzi Seçki Komissiyası | | | 6 | 9 | |
| 5 | “Elektron hökumət” portalı | | | 2 | 0 | |
| 6 | Baş Prokurorluq | | | 1 | 1 | |
| | **CƏMİ:** | | | **15** | **17** | |
| | **YEKUN** | **439** | **277** | **365** | **478** | **373** |

# "Elektron hökumət" portalına daxil olanların sayı 852 585 nəfərə çatdı




Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) Məlumat Hesablama Mərkəzi (MHM) "Elektron hökumət" portalına daxilolmaların növbəti statistikasını təqdim edib. Statistik uçotun aparıldığı tarixdən - 2012-ci ilin dekabrından 2014-cü ilin avqust ayının 31-ə qədər portala daxil olanlar haqda toplanan məlumatlar göstərir ki, portala ümumilikdə 2 157 077 daxilolma qeydə alınıb.

Portala müraciət edənlərin ümumi sayı isə 852 585 nəfər olub. Belə ki, 852 585 nəfər ümumən 2 157 077 dəfə portala baxıb və 3 735 355 elektron xidmətə müraciət ediblər. Həmin şəxslər 7 231 983 dəfə müxtəlif səhifələrə keçid ediblər və portala sərf etdikləri vaxt ortalama 5 dəqiqə 12 saniyə olub.

Ümumilikdə bu gün vətəndaşlarımızın portala marağının artması müşahidə olunmaqla yanaşı, təkrarən portala müraciət edənlərin də kütlə nisbəti artmaqdadır. Bu dövr ərzində portala müraciət edənlərin 39.6%-ni yeni istifadəçilər, 60.4%-ni isə təkrar müraciət edənlər təşkil edib.

Müqayisə üçün avqust ayının statistikasına nəzər salsaq, bu dövrdə portala 543 544 daxilolma qeydə alınıb. Portala müraciət edənlərin ümumi sayı isə 198 690 nəfər olub. Həmin şəxslər 2 218 933 olmaqla, müxtəlif səhifələrə keçid ediblər, 1 149 895 xidmətə müraciət edib və portala sərf etdikləri vaxt ortalama 6 dəqiqə 27 saniyə təşkil edib. Avqust ayı ərzində portala müraciət edənlərin 25%-ni yeni istifadəçilər, 75%-ni isə təkrar müraciət edənlər təşkil edib.

Portala daxil olmaq üçün sadələşdirilmiş kod-parol alan istifadəçilərin sayı bu gün 120 253-ə çatıb. Azərbaycan Respublikasında yaşayan və şəxsiyyət vəsiqəsinə sahib olan istənilən vətəndaş kod-parol əldə edə bilər. Portal üzərindən təqdim edilən xidmətlərin sayı 365 ədəd olub.




© 2014 Məlumat Hesablama Mərkəzi
Ünvan: Bakı şəhəri, Droqal döngəsi, 702-ci məhəllə
Tel.: 157; Email: office@rabita.az